Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 74 (2108) 4 iyul 2020-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Albaniya dövlətçilik tariximizdə





(əvvəli ötən sayımızda)

**Albaniyanın Cənub sərhədlərinin Kür çayından keçməsi barədə ehtimallar başlıca olaraq yunan - Roma və V-VII əsr erməni müəlliflərinin məlumatlarına, doğruluğu müəyyən edilməyən, yalnız kortəbii inama görə etibarlı sayılan mənbələrə, o cümlədən VII-VIII əsr alban tarixçisi Moisey Kalankatlının məlumatlarını təkzib edən erməni tarixçilərinin ənənəvi xronologiyasına əsaslanır.**

V.V. Bartold antik ədəbiyyat mənbələrinə qiymət verərək yazır: "Bədbəxtlik ondadır ki, yunan orijinalları bizə çox gec, işləndikdən, əl gəzdirildikdən sonra gəlib çatıb; bunlar çox vaxt müqayisə edilən məlumatları heç bir tənqidə məruz qalmayan sadəcə kompilyasiya şəklindədir və buna görə də bu mənbələrə son dərəcə ehtiyatla yanaşmaq lazımdır".

Siyasi tarixi: Azərbaycanın qədim dövlətlərindən biri olan Albaniya Makedoniyalı İsgəndərin imperiyası dağılandan sonra, yəni eramızdan əvvəl IV əsrin sonlarında vahid mərkəzləşmiş dövlətə çevrilmişdir.

***Mənbələr Alban dövlətinin antik dövrdə yerli sülalənin nümayəndələri tərəfindən idarə olunduğu haqqında məlumat verir. Albaniyanın ilk hökmdarının adı ilə bu sülalə tarixi ədəbiyyatda Aranilər (Arranilər) adlandırılır. Lakin bu sülalə haqqında məlumatlar çox azdır.***

Artıq eramızdan əvvəl I minilliyin ortalarında Albaniya ərazisində daş, şüşə və metal möhürlər yayılmışdı. Belə metal üzük-möhürlər eramızdan əvvəl V-IV əsrlərdə antik dünyada və Şərqdə də yaxşı məlum idi.

Pompeyin rəhbərlik etdiyi Roma ordusu ilə Aruzun (yunan-roma mənbələrində Oroys) rəhbərlik etdiyi Albaniya ordusu arasında e.ə. 66-cı ildə döyüş olmuşdur. Daha sonra İberiyaya doğru irəliləyən Roma ordusu ikinci dəfə e.ə. 65-ci ildə Alazan çayı sahilində Aruzun qardaşı Seberin (yunan-roma mənbələrində Kosis) rəhbərlik etdiyi Albaniya ordusu ilə toqquşmuş və böyük itki verərək İberiya ərazisinə keçmişdir. Strabonun məlumatında albanların qoşun növlərindən danışılır: görünür, albanlar bu cəhətdən qonşularından heç də fərqlənmirdilər, ya da çox cüzi fərqlənirdilər. Qədim coğrafiyaşünasın dediyinə görə, alban qoşunu piyadalara və süvarilərə bölünürdü.

Alban süvarilərinin sayı Strabonda 22 min, Plutarxda isə 12 mindir. Beləliklə, görünür ki, alban qoşunu Strabona görə 82 min (60 min piyada və 22 min süvari), Plutarxa görə bir halda 72 min (60 min piyada və yalnız 12 min süvari), başqa bir halda 40 min, Apiana görə təqribən 40 min döyüşçüdən ibarət idi. Eramızdan əvvəl 64-cü ildə alban qoşunlarının romalılarla ilk toqquşması Plutarx və Dion Kassi tərəfindən təsvir edilmişdi. Bu toqquşma eramızın 35-ci ilində parfiyalılara qarşı yönəldilmiş hərbi əməliyyatla əlaqədar Korneli Tasit tərəfindən də xatırladılır (Aliev K.Q. Albanskoe voysko i eqo voorujenie//DAN AzSSR, 1957, 8).

E.ə. II-I yüzilliklərdə, Parfiyanın hərbi cəhətdən qüdrətli dövründə, tabelikdə olan ölkələrə nəzarət etmək üçün formalaşmış inzibati aparatın olmadığı bir şəraitdə Parfiya Arşakiləri üçün mümkün olan yeganə düzgün qərar həmin məmləkətlərdə yerli sülalələri hakimiyyət başında saxlamaq idi. Sonralar vassal məmləkətlərdə yerli sülalələri taxtdan götürüb əvəzinə öz adamlarını, Arşakilərin nümayəndələrini təyin etmək siyasətinə əl atdı. Persida, Atropatena, Hirkan, Ermənistan, Hindistan, Gürcüstan və s. yerlərdə Arşakilərin şaxələri, kiçik Arşaki sülalələri belə yarandı.

Strabonun verdiyi məlumata görə, Antik Qafqaz Albaniyasında Zevs, Helios və Selenayla eyniləşdirilən tanrılara ibadət olunub. Belə ki, Strabon Alban panteonunun baş tanrısını Zevslə eyniləşdirir. Bununla əlaqədar Azərbaycanın müxtəlif bölgələrindən tapılan daş kişi heykəlləri diqqəti cəlb edir. Bunların ən səciyyəvi olanları Boyəhmədli, Seysulan, Xınıslı, Dağkolanlı və Çıraqlıdan aşkara çıxarlıb **(Юсифов Ю.Б., Бабаев И.А. Кавказская Албания в эллинистическую эпоху. В кн.: Причерноморье в эпоху эллинизма.//Мат-лы ЫЫЫ Все-союзн. симпозиума по древней истории Причерноморья. Цхалтубо, 1982, Тбилиси, 1985).**

Qədim Şamaxı, Qəbələ, Bərdə və b. qəbiristanların öyrənilməsi zamanı üzə çıxarılmış gümüş və qızıl məmulatı diqqəti cəlb edir. Qırlartəpə məskəninin yaxınlığında yerləşən, içərisində keramik qablar olan torpaq qəbirdən döymə üsulu ilə hazırlanan iki gümüş piyalə tapılmışdı. Burada yerli sənətlər haqqında müəyyən təsəvvür yaradan silah və bəzək şeyləri də aşkar edilmişdir. Albaniya ərazisində iri küplərdə dəfn etmək adəti geniş yayılmışdı. Belə qəbirlər Mil, Qarabağ və Şirvan düzlərində və dağətəyi rayonlarda, Kür çayının sahillərində qeydə alınmışdır. Ağcabədi, Ağdam, İsmayıllı, Ucar, Şamaxı, Xankəndi, Qəbələ rayonlarında, Mingəçevirdə, Qalatəpə xarabalıqlarının ətrafında, başqa rayonlarda yüzlərlə küp qəbir tədqiq edilmişdir. Küplərdə dəfn etmək adəti ən qədim əsrlərdən başlanmışdır. Bu tip qəbirlər müxtəlif vaxtlarda Ön Asiyada və Qafqazda geniş yayılmışdır. Albaniyada bu adət eramızdan əvvəl I minilliyin ikinci yarısından ta eramızın VIII əsrinədək mövcud olmuşdur.

***Azərbaycan arxeoloqları tərəfindən Qarabağda daşdan yonulmuş 19 insan heykəli qeydə alınmışdır. Bu abidələr Mollalar, Şəfibəyli, Suma, Güllücə (Ağdam rayonu), Şatırlı (Bərdə rayonu), Canyataq (Ağdərə rayonu), Seysulan (Tərtər rayonu) kəndləri yaxınlığında aşkar edilmişdir.***

Alban tarixçisi Moisey Kalankatuklu yazısı olan xalqlar içərisində madayları və albanları xüsusi qeyd etmişdir. Alban yazısının çiçəklənmə dövrü V-VI yüzilliklər sayılır. Azərbaycan Respublikası ərazisində aparılan arxeoloji qazıntılar zamanı müxtəlif bölgələrdə yerləşən arxeoloji abidələrin antik və erkən orta əsrlər qatlarından Qafqaz Albaniyasında istifadə edilmiş yüzlərlə sikkə nümunələri əldə edilmişdir. Həmçinin Qəbələ **(Халилов Дж.А., Бабаев И.А. Античные традиции в материальной культуре Кавказской Албании.//Сб. Античность и античные традиции в культуре и искусстве народов Советского Востока, М., 1978)**, Torpaqqala, Xınıslı, Mingəçevir arxeoloji qazıntıları zamanı sikkə dəfinələri də aşkarlanmışdır.

Arxeoloji qazıntılar zamanı Qafqaz Albaniyası ərazisindən aşkar edilmiş ən erkən sikkə nümunələri Makedoniyalı İsgəndərin adından kəsilmiş draxma və tetradraxmalardır. **(Бабаев И.А., Казиев С.М. Кабалинский клад монет эллинистической эпохи. Нумизматика и эпиграфика, 1971, вып. ЫХ).** Sonrakı dövrlərdə isə Albaniyada Makedoniyalı İsgəndərin sikkələrinə bənzər yerli sikkələr meydana gəlmişdir. Bundan başqa Azərbaycanın qədim Albaniya dövlətində Roma imperiyası, Parfiya və Bizans hökmdarlarının sikkələrindən, həmçinin yerli hökmdarların adlarından kəsilmiş sikkələrdən istifadə edilmişdir.

Ayrı-ayrı yerlərdə indiyədək qalmaqda olan metal, daş və ağac əmək alətləri Albaniyanın iqtisadiyyatını öyrənmək üçün xüsusi əhəmiyyətə malikdir. Bunlar dəmir oraqlar, çapacaqlar, bıçaqlar, qayçılar, bizlər, iynələr, dən daşları, kirkirə daşları, sürtgəclər, bülöv daşlardan ibarətdir.

**Dulusçuluq məmulatı Qafqaz Albaniyası iqtisadiyyatının və mədəniyyətinin daha da inkişaf etdiyini göstərir. Yaloylutəpə keramikası Şirvan, Şəki, Zaqatala bölgəsi, Gəncə-Qazax, Mil-Qarabağ düzü, Alazan və Kür hövzəsi, habelə Dağıstan ərazisində olan abidələrdən məlumdur.**

Əbülfət MƏDƏTOĞLU